Deyirlər, istedad Allah vergisidir...

Tələbə ikən SSRİ Jurnalistlər Birliyinin üzvü seçilmiş bu istedadlı qələm sahibi barədə nə qədər yazılsa, yenə də azdır

Bu vergi isə hər kəsin qismətinə, nəsibinə düşən tale payı, ömür payı deyil. Bir də deyirlər Ki, Adam olmaq asandır, insan olmaq çətin. Oxucularımıza təqdimləyəcəyimiz bu yazıda Allah vergisi olan xüsusi istedada malik bir insan haqqında söhbət açmaq istəyirik. Söhbətimiz isə cari ilin 26 iyununda ömrünün 53-ci ilinə qədəm qoyacaq Məmmədov Allahverdi Məhəmməd oğlu barədədir.

Allahverdi müəllim 26 iyun 1956-cı ildə Naxçıvan Muxtar Respublikasında, Naxçıvan şəhərinin Nehrəm kəndində anadan olub. 1973-cü ildə Nehrəm kənd orta məktəbini bitirib və "Şərq qapısı" qəzetinin mətbəəsində çalışıb. 1976-cı ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə daxil olub. Həmin ali məktəbdə təhsil aldığı müddətdən başlayaraq dövri mətbuatda tez-tez müxtəlif janrlarda publisistik yazılarla çıxış etməyə başlayıb. Hələ tələbə ikən yazdıqlarına görə, həmçinin qazandığı peşəkar jurnalistika biliyinə, təcrübəsinə, təqdirəlayiq fəaliyyətinə, dövlətinə və xalqına göstərdiyi misilsiz, danılmaz, əvəzedilməz və müstəsna xidmətlərinə görə SSRİ Jurnalistlər İttifaqının üzvlüyünə qəbul edilib. 1981-ci ildə Jurnalistika fakültəsini bitirərək Naxçıvan Dövlət Televiziyasında çalışmağa başlayıb. Partiya, dövlət qulluğunda irəli çəkilərək bir müddət sonra Naxçıvan Şəhər Partiya Komitəsində şöbə müdiri, Vilayət Partiya Komitəsində məsul vəzifələrdə çalışıb. 1984-1990-cı illər arasında müxtəlif dövlət vəzifələrində şalışmışdır. 1989-cu ildə Naxçıvanda çıxan "Şərq qapısı" qəzetinin baş redaktorunun müavini vəzifəsində işləyib, bir müddət sonra "Xalq qəzeti»nin Naxçıvan MR üzrə xüsusi müxbiri təyin edilib.

1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin tövsiyyəsi ilə yaradılan "Azad Azərbaycan" beynəlxalq radiosunda redaktor, 2001-ci ildən 2007-ci ilədək Azərbaycan Dövlət Televiziyasında "Xəbərlər" analitik proqramının baş redaktoru vəzifəsində



çalışıb. 2007-ci ildən bu günə kimi Azərbaycan Respublikası Ali Məhkəməsinin mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışır.

2004-cü ildə "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycançılıq" mövzusunda dissertasiya işi müdafiə edərək alimlik dərəcəsi alıb. Hazırda həmin mövzunun davamı kimi doktorluq dissertasiyası üzərində işləyir. Eyni zamanda Allahverdi Məmmədli Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində müəllimlik fəaliyyəti ilə məşğul olur və bu fənni tədris etdiyi yüzlərlə tələbəsində bu peşənin incəliklərini öyrətməkdən böyük zövq alır.

Üç kitab müəllifidir. "Cəlil Məmmədquluzadənin yaradıcılığı haqqında", "Babək şəhidləri", publisistik yazıların və əsərlərin müəllifi kimi tanınıb.

Ailəlidir. 3 övladı - 1 qızı, 2 oğlu var. Hamısı ali təhsillidir. Böyük övladları Tural və Qumral ailəlidirlər. Kiçik övladı Turab Məmmədli isə boks üzrə dəfələrlə dünya çempionu adına layiq görülüb.

Hörmətli oxucular!

Allahverdi Məmmədov barədə sizlərə təqdim etdiyimiz bu statistik məlumatlar onun həyat və yaradıcılığının yalnız müəyyən qismini əhatə edir. Ancaq onun barəsində nə qədər yazılsa, nə qədər deyilsə, yenə azdır. Çünki bu xalq, bu dövlət üçün əvəzedilməz insanlardan biri olan Allahverdi müəllim kimi əsl sənətkarlara, peşə sahiblərinə, öz sənətlərinin fəadilərinə sağlıqlarında qiymət verilməli, əməyi qiymətləndirilməlidir. Çünki onların buna haqqı var. Elə Allahverdi müəllimin də.

Aynur Sehriqızı

AZƏRBAYCAN BAYRAĞI ÜMUMDÜNYA ELMİ FORUMDA

1981-ci ildə yaranmış Qeyri-Səlis Informasiyanın Emalı Şimali Amerika Cəmiyyəti (North American Fuzzy İnformation Processing Society-NAFIPS) qeyri-səlis çoxluqlar nəzəriyyəsi və qeyri-səlis məntiq sahəsində Şimali Amerikada aparıcı elmi cəmiyyətdir.

NAFİPS-in əsas məqsədi bəşəriyyətin rifahı naminə qeyri-səlis çoxluqlar nəzəriyyəsinin inkişafı və uyğun yeni texnologiyaların dəstəklənməsidir.

Bu məqsədlə NAFİPS müxtəlif milli və beynəlxalq təşkilatlar ilə əməkdaşlıq və texnologiyaların mübadiləsini həyata keçirməyə





nail olmağa çalışır.

NAFİPS - in növbəti illik konfransı - NAFİPS-2009 hal-hazırda 2009-cu ilin iyun ayının 14-dən 17-nə kimi ABŞ-ın Ohayo ştatının Sensinati Universitetində keçirilir. Konfransın vəzifəsi intellektual sistemlər və texnologiyalar sahəsində perspektiv ideyaların və tədqiqatların müzakirəsi, bu sahədə elmin və texnologiyaların gələcək istiqamətinin müəyyənləşdirilməsi, qeyri-səlis informasiya emalı sahəsində innovasiyaların və nailiyyətlərin müzakirəsi məqsədilə tədqiqatçıları, mühəndisləri və praktikləri bir yerə toplamaqdır.

Konfransın əsas istiqamətləri hesablama intellekti, təsvirlərin tanınması və emalı, qeyri-səlis çoxluqlar, qeyri-səlis modelləşdirmə, rahat interfeys, verilənlərin çıxarılması, neyro qeyri-səlis sistemlər və təkamüllü optimallaşdırma, adaptiv sistemlər və qeyri-müəyyənlik şəraitində idarəetmə, robototexnika və texniki görmə sistemləri, bioinformatika və s.-dir.

Qürur hissilə qeyd etmək lazımdır ki, İEEE, Omron, NAFİPS kimi məşhur təşkilatların loqotipləri ilə yanaşı konfransın təqdimində ilk dəfə olaraq Azərbaycanın bayrağı da var. Bu səviyyəli beynəlxalq elmi forumlarda Azərbaycan aliminin plenar məruzə ilə çıxışı nadir bir haldır (bəlkə də ilk dəfədir). **Sevindirici haldır ki, dünya şöhrətli Azərbaycan alimi, ADNA-nın Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri, texnika elmləri dokroru, professor, ABŞ-ın Corciya Dövlət Universitetinin Biznesin idarə olunması Proqramının direktoru, "Əlillər Dünyası" qəzetinin redaksiya heyətinin üzvü, professor Rafiq Əliyevin plenar məruzəsi dünya şöhrətli alim L.A.Zadədən sonra ikinci məruzədir.**

İndi isə Azərbaycan alimi professor R.Ə.Əliyevin "Qeyri-səlis iqtisadiyyatda qərarların analizi və dayanıqlıq" adlı plenar məruzəsi haqqında. Məruzə prinsipcə yeni, müasir iqtisadiyyatda humanistik yönlü qərar qəbuletmə metodlarına və idarəetməyə həsr olunub. Məruzədə müasir dövrdə iqtisadi nəzəriyyə və iqtisadi reallıq arasında uçurumun olması faktı qeyd olunur. Bunun əsas səbəbi odur ki, iqtisadi nəzəriyyə iqtisadi reallığın modelləşdirilməsində kifayət qədər uğurlu olmayıb, ona görə ki, bu nəzəriyyələr öz mahiyyətinə görə ideallaşdırılmış riyazi modellərə əsaslanıb. İqtisadiyyatda isə mürəkkəb, çoxagentli və humanistik sistemlərdə olduğu kimi motivasiya, intuisiya, insan biliyi və davranışı (qavrama, emosiya və ictimai normalar) dominant rolu oynayır. Deməli, dünyanın real iqtisadi və sosial-iqtisadi problemlərini "kasıb" klassik riyaziyyat və binar məntiq dilinə çevirmək olduqca mürəkkəb və qeyri-adekvatdır.

Məruzədə iqtisadiyyata informasiyanın natamam və qismən doğruluğu ilə xarakterizə olunan insan-sentrik, real çoxagentli sistem kimi baxılır. Məruzədə təklif olunan yanaşmada iqtisadi agentlərin modelləşdirilməsi və proqnozlaşdırılması qeyri-səlis məntiq və qeyri-səlis riyaziyyata əsaslanır. Məruzədə ikiqat qeyri-müəyyənlik şəraitində qərar qəbul etmənin və qeyri-səlis dayanıqlığın yeni nəzəriyyəsinin fundamental əsasları təqdim olunur. Təklif olunan nəzəri müddəalar binar məntiqə və klassik riyaziyyata əsaslanan ənənəvi və idealistik yanaşmalardan fərqli olaraq insanın intuisiya və davtranışını, düşüncə tərzini nəzərə alan qeyri-additiv yanaşmaya söykənir.

Onu da qeyd edək ki, professor Rafiq Əliyev bu ilin iyun ayının əvvəlində məhşur Berkli Universitetində də dünyanın müxtəlif ölkələrindən olan professorlar, tədqiqatçılar və tələbələr üçün "Yeni qərar qəbul etmə nəzəriyyəsi" adlı seminar keçirəcək.

Daha müfəssəl informasiyanı aşağıdakı saytdan götürmək olar:

< h t t p : / / n a - fips2009.ewu.edu/wiki/index.php/NAFIPS2009>

"Əlillər Dünyası"

Xocalı faciəsi - 17

XX əsrin ən böyük qətliamı

"Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür".

Heydər Əliyev

Bu yaxınlarda "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi və "Əlillər Dünyası" qəzeti Xocalı soyqırımının 17-ci ildönümünə həsr edilmiş "Xocalı qan yaddaşımızdır" mövzusunda anım mərasimi keçiriblər.

Tədbirdə "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri, "Əlillər Dünyası" qəzetinin baş redaktoru Tahir Xudiyev, təqaüdçü, adıçəkilən cəmiyyətin dini tədbirlərin təşkilatçısı Qabil Ağayev, AMEA-nın aparıcı elmi işçisi, fəlsəfə elmləri doktoru Mir Müstəqil Ağayev, Xocalıdakı orta məktəbin keçmiş tədris hissə müdiri Əkbər Xudiyev, "Kür-Xəzər" xeyriyyə cəmiyyətinin prezidenti, Dünya Azərbaycanlıları Konqresi sədrinin müşaviri, BMT-nin sülh səfiri, akademik Akif Kərimov, Xocalı Rayon İcra Hakimiyyəti "Müharibə veteranları və şəhid ailələri birliyi"nin sədri Vaqif Abbasov, Milli Qəhrəman Şirin Mirzəyevin həyat yoldaşı Flora xanım Qasımova, "Azərbaycanın Milli Qəhrəmanı Asif (Fred) Məhərrəmov adına inkişaf fondu"nun heyət üzvü, şair-publisist German, DİN-nin nəzdində fondun sədri Hacı Xanım Əhmədzadə, "Beynəlxalq Əlillər Cəmiyyəti" İB-nın fəal üzvü Esmira xanım Şükürova, "Müstəqil Respublika" qəzetinin baş redaktoru Gülxas Səmədli, MTN-nin təqaüddə olan polkovnik-leytenantı, Qarabağ müharibəsi veteranı Bəşir Mahmudov, "Zaur" xeyriyyə cəmiyyətinin sədri Zaur Əliyev və başqaları çıxış etdilər. Natiqlər bildirdilər ki, 1988-ci ildən mənfur qonşularımızın torpaq iddiaları ilə başlamış Ermənistan-Azərbaycan , Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri də Xocalı soyqırımı olub. Bu hadisə tarixə XX əsrin ən dəhşətli və ən qəddar faciələrindən biri kimi düşüb. Xocalı faciəsi bəşəriyyət tarixində məlum olan Babiyar, Xatın, Liditse, Sonqimi, Xolokos faciələri ilə yanaşı dayanır.

Anım mərasimində qeyd edildi ki, bu faciə erməni şovinistlərinin azərbaycanlılara qarşı vaxtaşırı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasətinin davamı, ən qanlı səhifəsidir. Miqyasına və qəddarlığına görə dünya tarixində bənzəri olmayan Xocalı faciəsini törətməklə ermənilər Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq məqsədi güdürdülər. Lakin faciə bütün Azərbaycanı sarsıtsa da, xalqın mübarizə əzmini qıra bilmədi, torpağa məhəbbət, düşmənə nifrət hissini bir az da gücləndirdi. Xocalılar, hətta amansız soyqırımı günündə də özlərini əsl qəhrəman kimi aparıblar, ermənisovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşublar, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Çıxışlarda erməni hərbi birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfərin şəhid, 487 nəfərin şikəst olduğu, 1275 nəfər dinc sakinin-qocaların, uşaqların, qadınların əsir götürülərək ağlasığmaz təhqirlərə və işgəncələrə məruz qaldığı, 150 nəfərin taleyinin isə hələ də naməlum qaldığı bir daha nəzərə çatdırıldı. Vurğulandı ki, şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlardan ibarətdir. Şikəstlərin 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilib, 24 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirib.

Şəhid olanların yalniz 335 nəfəri dəfn olunub. 200 nəfərin ayaqları soyuqdan donmuşdur, 1000 nəfərdən çox şəhər sakini müxtəlif

dərəcəli bədən xəsarəti almışlar. Bildirildi ki, soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilib. Onlar diri-diri yandırılıb, başları kəsilib, başlarının dərisi soyulub, körpə uşaqların gözləri çıxarılıb, meyidlərin üzərində dilə gətirilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilib.

Tədbirin sonunda dünya dövlətlərinin beynəlxalq əlil təşkilatlarına, ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirliklərinə göndərilməsi nəzərdə tutulan bəyanat qəbul edilib.

Xocalı soyqırımı və ümumən Qarabağ müharibəsi zamanı ermənilərin həyata keçirdiyi genosid siyasətinin ifşasına həsr olunmuş anım mərasimində bir çox dövlət qurumlarının, o cümlədən, Səhiyyə Nazirliyi müalicə-profilaktika şöbəsinin müdiri Yusif Babayev, Qaçğınlar və Məcburi Köckünlərlə İş Üzrə Dövlət Komitəsinin nümayəndəsi Mübariz Əhmədov, Tatarıstan Respublikasının Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Elmira xanım, Nizami Rayonu İcra Hakimiyyətinin nümayəndəsi Vəli Məhərrəmov, "Beynəlxalq Qızıl Xaç və Qırmızı Aypara" Cəmiyyətinin Nizami rayon şöbəsinin sədri Rəna xanım İbrahimova, AR Əlillər Cəmiyyətinin sədri Xədicə xanım Mikayılova, AR Karlar Cəmiyyətinin sədri Tapdıq Xalıqov, AR Gözdən Əlillər Cəmiyyətinin əməkdaşları Bəybala İbadullayev və Rizvan İbrahimov, "Azərbaycanın Milli Qəhrəmanı Asif (Fred) Məhərrəmov adına fondu"nun prezidenti Ədalət Məhərrəmov, AR BƏD cəmiyyətinin sədri Sərraf Orucov, kütləvi informasiya vasitələrinin nümayəndələri- AZƏRTAC-ın, "İctimai" televiziyanın və s. rəsmi nümayəndələri də iştirak etmişlər. Tədbirdə dəvətli qismində 200 nəfərə yaxın şəxs iştirak etmişdir.

Biz də "Beynəlxalq Əlillər Cəmiyyəti" İB və "Əlillər Dünyası" qəzeti redaksiyası olaraq, tədbirin yüksək səviyyədə keçirilməsi üçün təmənnasız olaraq yaratdığı şəraitə görə "Bayram" şadlıq evinin müdiri Çingiz müəllim və əməkdaşı Fəxrəddinə, həmçinin bütün kollektivinə öz təşəkkürümüzü bildirirk.

Bəxtiyar Rzayev

"Minadan zərər çəkənlər üçün bərabər imkanlar"

"Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzi "Mingəçevir TV"-də veriliş təşkil etmişdir

Mingəçevir şəhərində Mingəçevir Regional Televiziya və Radio Verilişləri Şirkətində 14 may tarixində "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin sədri İslam Baxşəliyev, "Əlillər Dünyası" qəzetinin baş redaktoru və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri Tahir Xudiyev, İnsan Hüquqları üzrə Müvəkkiliyin əməkdaşı Müqalib Mahmudov, ANAMA-nın Göygöl Regional Şöbəsinin müdiri Natiq Mahmudov Mingəçevir və ətraf rayonlarda yaşayan müxtəlif kateqoriyadan olan əlillərin sosial, ictimai, mənəvi-psixoloji problemlərinə həsr edilmiş "Minadan zərər çəkənlər üçün bərabər imkanlar" adlı veriliş təşkil olunmuşdur. Verilişin təşkil olunmasında məqsəd əlillərə bu sahədə yerli icra orqanlarının, hərbi komissarlıqların, ictimai təşkilatların ölkə rəhbərliyinin son illərdə qəbul etdiyi qərar və sərəncamların reabilitasiya layihələrinin icrasının səviyyəsini işıqlandırmaq idi. Qeyd olunmuşdur ki, bu kateqoriyadan olan şəxslər bəzən yerli TSEK-lər tərəfindən əlillik dərəcəsi təyin edilərkən tez-tez bürokratizm, qanunsuz süründürməçilik, bəzi məmurların kobud, laqeyd münasibətləri ilə qarşılaşırlar. Bildirməliyik ki, mövcud problemlərlə bağlı geniş, əhatəli çıxışlarla veriliş iştirakçıları-"Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin sədri İslam Baxşəliyev, "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri Tahir Xudiyev tamaşaçıların diqqətini bir daha bu mövzunun aktuallığına yönəldə bildilər. Verilişdə, eyni zamanda Bərdə, Ağdam, Yevlax Regional TSEK-in rəhbərliyindən minadan zərər çəkmişlərin süründürməçilik və laqeyd münasibətlərlə qarşılaşması faktları qeyd olunmuşdur. Yevlax Regional TSEK-in işində də konkret nöqsanların olması barədə məlumatlar "Beynəlxalq Əlillər Cəmiyyəti" İB-nın mətbu orqanı olan "Əlillər Dünyası" qəzetinə də ünvanlanması barədə baş redaktor Tahir Xudiyev tərəfindən açıqlandı, eyni zamanda cəmiyyətin bu məsələlərlə bağlı ictimai vəkillik fəaliyyətini qeyd etdi. Ombudsman Aparatının əməkdaşı Müqalib Mahmudov əlil insanların sosial müdafiəsinin qanunvericiliklə qorunması və aparatın bu sahədə gördüyü işləri verilişdə əraflı işıqlandırdı.

Verilişin sonunda belə bir ümid ifadə olundu ki, ölkə prezidenti İlham Əliyevin son illərdə əlillərə və onlara bərabər tutulan imtiyazlı şəxslərin iqtisadi-sosial problemlərinin həlli istiqamətində Azərbaycanın regionunlarında da ciddi addımlar atılacaq, bu kateqoriyadan olan şəxslər bizimlə bərabər cəmiyyətin tamhüquqlu üzvlərinə çevriləcəklər.

Cahid Sabiroğlu